# MBNP-nin nümayəndələri "Sinqapur Fintech Festival x Switch" tədbirində iştirak ediblər

**Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi, rəqəmsal bankçılıq xidmətlərinin klassik bankçılıq xidmətləri paketinə daxil edilməsi, habelə ölkədə maliyyə inklüzivliyinin gücləndirilməsi çərçivəsində Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) nümayəndə heyəti Beynəlxalq Maliyyə Korporasiyası ilə qarşılıqlı əməkdaşlıq əsasında "Sinqapur Fintech Festival x Switch" tədbirində iştirak edib.**

Palatanın mətbuat xidmətinin yaydığı məlumata görə, ümumilikdə 134 ölkədən 60 min nümayəndənin qeydiyyatdan keçdiyi tədbirdə qabaqcıl istehsalat, mühəndislik kimi sahələrlə yanaşı, əsasən rəqəmsal iqtisadiyyat və rəqəmsal ödənişlər, pulköçürmələri, kriptovalyuta və blokçeyn texnologiyası, açıq bankçılıq yanaşması və "sandbox" rejimi", habelə fintexlər və onların fəaliyyətinin genişləndirilməsi kimi mövzulara toxunulub. Festival çərçivəsində maliyyə bazarları sahəsində tənzimləyici və nəzarət qurumları ilə özəl sektorun bir araya gələrək yenilikləri geniş ictimaiyyətə açıqlamaları, qlobal ödəniş ekosistemində son innovasiyalarla tanış olma imkanının yaradılması, fintexlər və startaplar tərəfindən yeni məhsul və xidmətlərin təqdim edilməsi iştirakçıların böyük marağına səbəb olub.

Nümayəndə heyəti Beynəlxalq Maliyyə Korporasiyasının maliyyə, rəqabət və innovasiya üzrə təcrübə qrupunun qlobal rəhbəri Alfonso G.M. və kredit infrastrukturu üzrə qlobal rəhbəri Mahesh.U., Sinqapurun maliyyə bazarları üzrə tənzimləyici və nəzarət qurumunun (Monetary Authority of Singapore) Fintex departamentinin nümayəndələri, habelə "Google Pay" şirkətinin Asiya regionu üzrə eksperti Xurram.K ilə qarşılıqlı görüşlər keçirib, həmçinin "Visa Inc." və "MasterCard Wordlwide" beynəlxalq kart təşkilatları, "Paypal" təşkilatının innovasiya mərkəzinin iş prinsipi ilə yaxından tanış olub. Bundan əlavə, səfər çərçivəsində Polşa və Litva Mərkəzi banklarının nümayəndələri ilə "sandbox" rejiminin tətbiqi və bank olmayan ödəniş xidməti təchizatçılarına nəzarət, bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin təşkili üzrə müzakirələr aparılıb.

Azərbaycan.- 2019.- 20 noyabr.- S. 9.